В статье «Дорога, ведущая к Ходжалинскому геноциду – Гарадаглинской трагедии» рассматривается дорога, ведущая к Ходжалинскому геноциду – Гарадаглинской трагедии, которая является одной из самых страшных и кровавых страниц в истории нашего народа.

**THE ROAD LEADING TO THE KHOJALY GENOCIDE - THE TRAGEDY OF GARADAĞLI**

***Namazova Elminaz Maharram***

***Summary***

Historically, countless genocides were committed by Armenians against our people. One of the terrible tragedies faced by the Azerbaijani people in the 20th century is the bloody terrorist acts and genocide committed by Armenian armed groups against civilians in Garadagli village of Khojavand district of the Republic of Azerbaijan on February 17, 1992. The Garadaghli tragedy is one of the most terrible tragedies that happened during the Armenian-Azerbaijani Nagorno-Grabagh conflict.

In the article "The road leading to the Khojaly genocide - the Garadagli tragedy", one of the most terrible and bloody pages in the history of our nation and the road leading to the Khojaly genocide - the Garadagli tragedy was investigated.

***Rəyçi:dos. A.Cavadov***
***Azərbaycan tarixi kafedrasının 7 iyul 2022-ci il tarxli iclasının 16 saylı protokolu***
***Daxil olma tarixi 25 oktyabr 2022-ci il***

**UOT 94 (479.25)**

**CƏNUBİ QAFQAZDA MÜNAQİŞƏLƏRİN TARİXİ KÖKLƏRİ**

***Qasımova Türkan İlqar qızı***
***Bakı Dövlət Universiteti***
***turkan.ilqar1990@mail.ru***

**Xülasə:** *XX əsrin sonlarında Sovet İttifaqında tənəzzülün ilkelementləri aydın şəkildə müşahidə olunurdu. Sosial-iqtisadi tənəzzül öz növbəsində ittifaq respublikalarda təlatümlərə səbəb olurdu. Bu cür gərginliklər həm də millətlərarası münasibətləri kəskinləşdirirdi. Cənubi Qafqazda vəziyyət daha gərgin idi. Burada həm ittifaqın qurulmasına qədər mövcud olmuş münaqişə ocaqları, həm də ittifaqın qurulmasından sonra meydana çıxmış bir sıra problemlər var idi. Məhz bunun nəticəsi idi ki, ərazicə elə də böyük olmayan Cənubi Qafqazda üç aktiv münaqişə zonası meydana çıxdı: Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində ErmənistanAzərbaycan münaqişəsi, Gürcüstanda gürcü-abxaz və gürcü-osetin münaqişələri. Sadalanan üç münaqişə zonası SSRİ-nin qurulmasına*

*qədərki dövrdə də qaynar nöqtələr olmuşdu. Sözügedən XX əsrin sonlarında olduğu kimi hazırdada öz aktuallığını qoruyur və Qafqazı dünyanın ən qaynar münaqişə ocağı məkanına çevirib.*

**Açar sözlər:** Qafqaz, Azərbaycan, Ermənistan, Gürcüstan, atəşkəs, siyasət, Əsrin müqaviləsi, münaqişə, osetinlər, abxazlar

**Ключевые слова:** Кавказ, Азербайджан, Армения, Грузия, прекращение огня, политика, договор века, конфликт, осетины, абхазы.

**Keywords:** Caucasus, Azerbaijan, Armenia, Georgia, ceasefire, politics, Treaty of the century, conflict, Ossetians, Abkhazians

**Giriş**

Cənubi Qafqaz keçmiş SSRİ məkanının bir hissəsi kimi daim Rusiya, Türkiyə və İranla yanaşı, Avropa ölkələrinin də maraq dairəsində olmuşdur. Bu maraqların regionda millətlərarası münaqişələrin hələ keçən əsrin 80-ci illərinin sonlarından başlamasında rolu və əhəmiyyəti kifayət qədər böyük olmuşdur. Etnosiyasi amillərin təsiri ilə dərinləşən ziddiyyətlər 1986-cı ilin yazında Yakutiyada, dekabrında isə Alma-Atada açıq çıxışlar formasını almış, tədricən sovet imperiyasının bütün ucqarlarını bürüyərək İttifaqın dərin siyasi böhranını şərtləndirmişdi. Cənubi Qafqazda etnosiyasi münaqişələrin başlıca ocaqları Gürcüstanın və Azərbaycanın ərazisində olmuşdur. Əgər Sovet Sovet İttifaqının dağılması nəticəsində ilk münaqişə ocağı Qarabağda yaranmışdısa, Gürcüstanın ərazisində bir neçə etnosiyasi münaqişə ocağı təşəkkül tapmışdı ki, bunlardan gürcü-osetin və gürcü-abxaz münaqişələri bu qonşu xalqlara daha böyük fəlakətlər gətirmişdir.

**Qarabağ münaqişəsi**

Qarabağ münaqişəsi SSRİ-nin süqutundan sonra Qafqazdakı sabitliyi təhlükə altına alan problemlərin önündə yer almaqdadır. Tarixi bir türk yurdu olan Qarabağa Çar Rusiyası dönəmindən etibarən Ermənilər yerləşdirilərək XIX əsrin sonundan etibarən kiçik münaqişələr başlanmış XX əsrdə isə ciddi problem olaraq ortaya çıxmışdır. Çar Rusiyasının siyasətini davam etdirən Sovet hökumətinin dağılması ilə bölgədəki münaqişələr canlanmışdır. Qafqaz dağlarının cənub şərqində yer alan 4392 $km^2$ əraziyə malik Qarabağ Azərbaycan Respublikası sərhədləri daxilində Kür və Arazla Göyçə gölü arasında, Qərbdə Ermənistan cənubda isə İran sərhəddinə qədər şimaldan cənuba 120 km, şərqdən qərbə 35-60 km uzunluğunda dağ və düzənliklərdən ibarət bir bölgədir. Əsasən Dağlıq hissələrdən ibarət olması səbəbilə ədəbiyyatda Dağlıq və ya Yuxarı Qarabağ kimi adlandırılır. Dağlıq Qarabağ ərazi olaraq ümumi Azərbaycanın 5% ərazisini əhatə edir. Tarix boyunca Türk boylarının yerləşdiyi bölgələr sırasında yer alan Qarabağ Azərbaycanda hökm sürən dövlətlərin də hakimiyyəti altında olmuşdur.

1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinin bağlanmasından sonra ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi prosesi kütləvi hal aldı. Bu dövrdə Türkiyədən 86 min, İrandan isə 40 min erməni indiki Ermənistanın ərazisi olan Qərbi Azərbaycan torpaqlarına köçürüldü. Ermənilər əsasən Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarının ərazisində yerləşdirildi. Bundan sonra da Azərbaycanın parçalanması cəhdləri davam etdi və burada erməni vilayəti yaradıldı. Doğrudur, sonralar, 1846-cı ildə bu vilayət ləğv edildi, bununla belə, ermənilərin Azərbaycan ərazilərində məskunlaşdırılması prosesi tarixdə öz mənfi izini qoydu[8, s.418]. Ermənilərin Qafqazda məskunlaşdırılması müxtəlif dövrlərdə mərhələli şəkildə həyata keçirilmişdir. [1]

Təxminən 2 əsr əvvəl Rusiya çarı bir qisim erməni əhalisinin Dərbənd və Qubaya köçürülməsi barədə fərman imzalamışdır. "Dərbənd və Müşkir ermənilərinin imtiyazları və sərbəst hərəkət etmək hüququ haqqında" adlanan bu fərmanda ermənilərə kifayət qədər geniş hüquqlar verilmiş və onların həyat şəraitinin yaxşılaşdırılması üçün münbit torpaqlara köçürülmələrinin vacibliyi qeyd olunmuşdu. 1723-cü ildə isə Rusiya çarı I Pyotr 12 sentyabr tarixli müqavilə əsasında Bakı, Dərbənd və Quba ərazilərinə ermənilərin köçürülməsi üçün

[1] Bakı Dövlət Universitetinin “Qafqaz xalqları tarixi” kafedrasının, dissertantı E-mail: turkan.ilqar1990@mail.ru https://orcid.org/0000-0002-8350-8330

xüsusi yerlər ayrılması barədə fərman imzalamışdır. 1726-cı ildə II Yekaterina ermənilərə xüsusi mərhəmət göstərməyin və onları himayə etməyin zəruriliyini ifadə edən fərman vermişdir. 1729-cu ildə Rusiya çarının fərmanı ilə bir qrup erməni məliyi Rusiya təbəəliyinə qəbul olunmuşdur. 1799-cu ildə çar I Pavel ermənilərin Qazax ərazisində məskunlaşdırılmasına kömək üçün Kartli-Kaxetiya çarlığına xüsusi göstəriş vermişdir. Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi nəinki ayrı-ayrı fərmanlarda və göstərişlərdə, hətta dövlətlərarası sazişlərdə belə öz əksini tapırdı. 1828-ci ildə Rusiya ilə İran arasında imzalanmış Türkmənçay sülh müqaviləsində belə bir maddə də öz əksini tapmışdı ki, İranda yaşayan ermənilərə sərbəst surətdə Rusiya ərazisinə keçmək hüququ verilir[8, s.385]. Bununla da əslində ermənilərin Azərbaycan ərazilərinə köçməsi üçün zəmin yaradılırdı. Çünki Rusiya əraziləri dedikdə məhz İrana daha yaxın olan Azərbaycan nəzərdə tutulurdu. 1828-1829-cu illərdə baş vermiş Türkiyə-Rusiya müharibəsindən sonra Türkiyədəki ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi barədə razılıq əldə olunmuşdu. Bunun reallaşdırılmasını sürətləndirmək məqsədilə Rusiyada xüsusi komitə yaradılmış və 12 maddəni əhatə edən ümumi qaydalar müəyyənləşdirilmişdi. Pyotrun vəsiyyətlərinə istinad edən bu siyasətin əsas məqsədi Azərbaycan ərazisini etnik baxımdan parçalamaq və burada xristian xalqlarının yerləşdirilməsini həyata keçirməklə cənubdan gələ biləcək təhlükələrə qarşı sipər yaratmaqdan ibarət olmuşdur. Beləliklə də ermənilər tədricən Azərbaycan ərazilərində yerləşdirilir, onlar üçün burada yaxşı şərait yaradılır və münbit torpaqlar ayrılırdı [12].

X.D.Xəlilov "Qarabağın etnik tarixindən" adlı əsərində ilk öncə o, Qarbağın tərkibinə daxil olan tarixi etnoqrafik vilayətləri sadalayır. Kiçik Qafqaz dağları, Kür-Araz ovalığı, Kürlə-Arazın qovuşduğu yerdən vilayətin cənub sərhədi başlayır, cənubda Araz çayı, Qarabağ dağları-Keşbek, Solvart, Erekli adı ilə məşhur olan və Göyçə gölünə qədər uzanan dağlar, Şərqdə isə Kür və Goran çayları-bütün bunlar sərhədlərdir. X.D.Xəlilov göstərir ki, Qarabağda 17 türk mahalı yerləşirdi: Sisyan, Dəmirçi-Aslanlı, Küparə, Bərgüşad, Bəhabyurd, Kəbirli, Talış, Cavanşir, Xaçın, Çiləbörd, Xırdapara-Dizaq, Otuziki, İyirmi dörd, Qaraçaorlu, Vərənd, Dizaq, Acan. Bir neçə kəndləri nəzərə almasaq 12 mahalda yalnız azərbaycanlılar yaşayırdı. Dizaq, Vərənd, Xaçın, Çiləbörd, Talış mahallarında azərbaycanlılar və ermənilər bir yerdə yaşayırdılar. Çarizmin müstəmləkəçilik planlarından bəhs edərkən müəllif qeyd edir ki, çarizm hər hansı bir yeri tutanda xalqları bir-birinə qarşı qoyurdu. O cümlədən çarizm azərbaycanlılara qarşı ermənilərdən istifadə etdi. "Çar ordusunun komandiri Sisianov 1805-ci il 22 may 19N-li raportunda yazırdı ki, öz coğrafi mövqeyinə görə Qarabağ həm Azərbaycanın, həm də İranın qapısı hesab olunur, ona görə də o, məsləhət görürdü ki, Çar bu yerləri öz əlində saxlasın. Qarabağ xanlığı Rusiyanın tərkibinə daxil olan kimi Sisianov öz mövqelərini möhkəmləndirmək üçün Zaqafqaziyanın başqa yerlərindən olan erməniləri Qarabağa köçürdü " [1, s. 38], [2].

N.İ.Şavrovun "Zaqafqaziyada rus işinə yeni təhlükə" başlıqlı qeydlərində isə bu məsələ ilə bağlı daha ətraflı məlumat vardır. "Biz öz müstəmləkiçilik siyasətimizə Zaqafqaziya qapılarında rusların deyil, digər yerlərdən gələn insanların daxil olması ilə başladıq [1, s. 60]. Hər şeydən əvvəl Şavrov 1819-cu ildə Vyurtemberq almanlarının 500 ailəsinin köçürdüklərini qeyd edir. Hansı ki, almanlar öz vətənlərində lazımsız hesab edilirdilər. Şavrov bunlardan Yelizavetpol və Tiflis quberniyalarında koloniyalar yaratdıqları və əlbəttə ki, bunlara ən yaxşı torpaqlar və imtiyazlar verdiklərini deyir.

Ermənilərin köçürülməsinə hazırlıq barəsində sülh danışıqları ərəfəsində Paskeviç İranda olarkən ermənipərəst siyasətinə ciddi şəkildə əməl edildi. Hər yerdə onu erməni keşişləri Nerses, Stefan, habelə ailəyə yaxın olan Sarkis müşayiət edirdi. Ermənilərin köçürülməsi məqsədilə Paskeviç, ermənilərdən ibarət xüsusi komitə təşkil etdi. Komitəyə

milliyətcə erməni olan Qriqori Davudoviç Lazarev rəhbərlik edirdi. 1828-ci ildə Qarabağ, Şəki, Naxçıvan, İrəvan və Şamaxıdan başqa Bərdəyə 1012 erməni ailəsi köçürüldü. Lazarev ermənilərin İrəvanda yerləşdirilməsinə daha çox çalışırdı,çünki burada ermənilər sayca az idi. Lazarev isə bundan narahat idi, "İrəvanda əhalinin 95%-i azərbaycanlı olduğundan bu çox təşviş doğururdu." Paskeviçin əmrinə əsasən İrəvanda Bebudovun başçılıq etdiyi və köçürülməsi ilə bağlı komitə yaradıldı. "1828-ci ilin may ayında Qarabağa 279 ailə, İrəvana isə 948 ailə köçürülmüşdür [3, s. 35]." Burada Şavrov ermənilərin köçürülməsi ilə bağlı aşağıdakıları qeyd edir: "1826-1828-ci ilin müharibəsi qurtardıqdan sonra biz 2 il ərzində (1828-1830) 40 mindən çox fars ermənisi və 8460 türk ailəsi köçürdük və onları Yelizavetpol və İrəvan quberniyasının ən yaxşı xəzinə torpaqlarında yerləşdirdik." Həmin yerlərdə erməni əhalisi yox dərəcəsində idi. Həmçinin erməniləri Tiflis, Borçalı, Axaltsixi və Axalkalaki bölgələrinə köçürdük. Şavrovun etirafı sübut edirdi ki, o dövrdə Zaqafqaziya quberniyalarında əsasən gürcülər və azərbaycanlılar yaşayırdı. O, göstərirdi ki,erməniləri yerləşdirmək üçün 200 min desyatin xəzinə torpağı ayrılıb və 2 milyon rubl məbləğində müsəlmanların şəxsi mülkləri satın alınıb. Yelizavetpol quberniyasının dağlıq hissəsi (Dağlıq Qarabağ) və Göyçə (Sevan) gölünün ətrafı bu ermənilərlə məskunlaşdırılır. Şavrov göstərirdi ki, bu dövrdə rəsmi şəkildə köçürülmüş 124 min ermənidən başqa, bu yerlərə qeyri-rəsmi surətdə də ermənilər gəlmişdi. Onların sayı 200 mini keçmişdi. Qarabağın da daxil olduğu İrəvan, Naxçıvan, Gəncə kimi Azərbaycan xanıqları 1828-ci ildəki Türkmənçay anlaşması ilə rusların əlinə keçmiş oldu. Bu tarixdən sonra ruslar İran və Anadolu ermənilərini Qafqaza gtirərək Qarabağa yerləşdirdilər. 1832-ci ildə ilk rəsmi rus statistikasına görə Qarabağın 64%-i Azərbaycan türkü, 34%-i isə erməni idi. Xüsusilə də I dünya müharibəsi sonrasında erməni köçlərinin çox olması və bunların da xüsusən Qarabağda yerləşdirilməsi nisbəti artırmış oldu [10, s. 22-23]. Beləliklə süni bir erməni bölgəsi yaradıldı.

Tanınmış rus hərbi tarixçisi Potto qeyd edirdi: "Təkcə 1828-ci ilin martında köçən erməni ailələrinin sayı 5 minə çatırdı." Erməni keşişi Nerses Aştrakeçiyə istinad edən Kuznetsova da Şimali Azərbaycana gətirilən erməni ailələrinin sayının 8 min olduğunu göstərir. İ.Şopenə görə isə İrandan erməni vilayətinə 35560 nəfər, 6946 erməni ailəsi köçürüldü [7, s. 95]. Rus tarixşünaslığında ermənilərin Azərbaycana köçürülməsi məsələsi kifayət qədər aydın, açıq-aşkar göstərilmişdir. Burada az da olsa, çarizmin milli müstəmləkəçilik siyasətinin ünsürləri rus mənbələrində öz dili ilə göstərilir. Təəssüf ki, ermənilərə daim əzabkeş xalq kimi baxan rus müəllifləri onların gələcəkdə Qafqaz xalqlarının, xüsusilə azərbaycanlıların başına gətirəcəkləri müsübətdən ya xəbərsiz idilər, yaxud da bunu əvvəlcədən bilirdilər. Təbii ki, əvvəlcədən bunu bilmələri rus çarizminin, ümumilikdə rus dövlətçiliyinin məqsədlərindən idi. Bölgənin əhali sayındakı dəyişiklik və ermənilərə verilən imtiyazlar yeni münaqişələrə zəmin hazırlamış oldu. XX əsrin ilk illərində İrəvan və Qarabağ ərazisində yerləşən ermənilərin başlatdığı hadisələr 1905-ci ildən etibarən ciddiləşərək Gəncə və Tiflis hadisələrini yaşatmış oldu. Bu məsələlərdə ermənilər Qarabağ və Tiflisdəki rus qarnizonunun əsgərlərindən dəstək görmüş oldular. Osmanlı arxiv qeydlərinə görə isə Qarabağ ermənilərinin həm bölgədə həm də Van, Bəyazid, Muş kimi Anadolu vilayətlərində etdikləri hücumları Ruslar dəstəkləyirdilər [11, s. 199-200] .Bolşevik işğalından sonra da ermənilərin müsəlman əhaliyə qarşı etdikləri hücumlar davam etmiş oldu. Batumi müqaviləsindən sonra minlərlə ailə ermənilərin Qarabağda etdikləri zülmə hökumətin yanaşmasını görüb Qars ətrafına köçmək məcburiyyətində qaldı. Birinci Dünya müharibəsi zamanı Azərbaycanlı əhaliyə kömək edən Osmanlı dövləti Mudros müqaviləsindən sonra Cənubi Qafqazı da tərk etməsindən sonra da onların yerini tutan İngilislər də Qarabağın Azərbaycana aid olduğunu elan etdilər. Sovet hakimiyyəti dönəmində Muxtar respublika olan

Dağlıq Qarabağda aparılan siyasət nəticəsində Azərbaycan türklərinin sayı getdikcə azalmış və ermənilər say üstünlüyünə yiyələnmişlər.

Rusiyanın erməniləri İrandan vəTürkiyədən Zaqafqaziyaya, başlıca olaraq "müsəlman əyalətlərinə" köçürmək siyasəti ermənilərin sayının Azərbaycan ərazisindəəhəmiyyətli dərəcədəartması ilənəticələndi. Rusiya mənbələrinəgörə, artıq 1832-ci ildəermənilər Qarabağ əhalisinin 31,6 faizini (1823-cü ildə 21,7 faiz), Şuşa əhalisinin isə 44,9 faizini (1823-cü ildə 27,5 faiz) təşkil etmişdilər. Ermənilər ərazilərimizdə məskunlaşdıqdan sonra öz dövlətlərini yaratmaq haqqında düşünməyə başladılar [6, s. 125]. Elə bunun nəticəsi idi ki, 1905-1906-cı illərdə Azərbaycanda ermənilər tərəfindən kütləvi soyqırımı aktları həyata keçirilmişdir. Bu illər ərzində onlar Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda kütləvi şəkildə azərbaycanlıları məhv etmiş, dəhşətli cinayətlər törətmişdilər. Tarixi qaynaqlarda təsdiqlənir ki, ermənilər həmin hadisələr zamanı Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl ərazilərində Azərbaycan kəndini tamamilə yerlə yeksan etmiş, İrəvan və Gəncə quberniyalarında isə 200-dən artıq yaşayış məntəqəsini dağıtmışdılar. "Paytaxtsız" respublika yarandığı gündən erməni şovinistləri əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Loru-Pəmbək və Şörəyel qəzalarında, Zəngəzurda, Göyçədə və digər yerlərdə kütləvi qırğınlar törətdilər 1920-ci ilin axırlarında Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra ermənilər əsrlərlə arzu etdikləri erməni dövlətini yaratmaq və qonşulara qarşı ərazi iddiasını irəli sürmək siyasətinə keçdilər. 70 illik sovet hakimiyyəti dövründə Azərbaycan torpaqları hesabına ərazilərini genişləndirən ermənilərin bu istiqamətdə iddiaları get-gedə daha da artdı. Moskvada dövlət idarə aparatında yuva salmış erməni lobbisinin bu yolda həyata keçirməyə nail olduğu mənfur niyyətlərindən biri də müharibədən sonra xaricdən gələn ermənilərin yerləşdirilməsini bəhanə edərək İ. Stalinin xeyir-duası ilə dövlət səviyyəsində azərbaycanlılara qarşı həyata keçirilən deportasiya siyasəti olmuşdur 1920-ci ildə Azərbaycanın Zəngəzur bölgəsinə sahib olan ermənilər 1921-ci ildə Dağlıq Qarabağı da Ermənistana birləşdirmək istədilər. Böyük şəxsiyyət, görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanovun prinsipial mövqe tutması onların planını pozdu. Lakin 1922-ci ilin sonunda N. Nərimanov Moskvaya getdikdən sonra onlar 1923-cü ilin iyulunda Dağlıq Qarabağa muxtariyyət verilməsinə nail ola bildilər. Bununla belə, onlar Dağlıq Qarabağa yiyələnə bilmək iddiasından əl çəkmir, dəfələrlə bu barədə məsələ qaldırırdılar.

XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olan Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin nəticələri milyonlarla insanın taleyinə ciddi təsir göstərmişdir. Münaqişə 1988-ci ildə Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları, etnik zəmində təxribatları və hərbi təcavüzü ilə başlamışdır. Ermənistan təcavüzkar siyasətini "özünümüdafiə qüvvəsini" müdafiə etmək pərdəsi altında gizlədərək, Azərbaycanda olan daxili qeyri-sabitlikdən istifadə etmiş və Dağlıq Qarabağ Muxtar Vilayətini (ərazisi 4388 km2 ) və ətraf əraziləri - Ağdamı, Füzulini, Laçını, Kəlbəcəri, Cəbrayılı, Qubadlını, Zəngilanı işğal etmişdi. Ermənilərin adları çəkilən əraziləri işğalı nəticəsində sənaye və kənd təsərrüfatı, kommunikasiya sistemi dağıdıldı, 1 milyondan çox qaçqın, məcburi köçkün kütləsi yarandı. Naxçıvan Muxtar Respublikasını Azərbaycanla birləşdirən yeganə nəqliyyat yolu olan Mehri dəmiryolunu Ermənistanın dağıtması nəticəsində Naxçıvan blokadada qaldı [13].

1994-cü il mayın 12-də Bişkek Protokolu əsasında qərara alınan Atəşkəs haqqında saziş imzalansa da, Ermənistan xaincəsinə hər gün sazişi pozaraq Azərbycan ərazilərini, mülki əhalini atəşə məruz qoyurdu. Ermənistanın isə dekonstruktiv mövqe tutması münaqişənin nizama salınmasına heç cür əsas vermirdi. 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti dəfə atəşkəsi pozması Azərbaycan Ordusunun əks hücuma keçməsi ilə nəticələndi.

Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyevin Ermənistan tərəfindən işğal edilən torpaqlarımızın azad edilməsində qətiyyətli mövqeyi və müzəffər Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı, Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Hadrut qəsəbəsini, Suqovuşan qəsəbəsini, 300-ə yaxın yaşayış məntəqəsini birbirinin ardınca azad etməsi və noyabrın 8-də Qarabağın ürəyi, Qafqazın incisi Şuşanın, noyabrın 9-da isə 71 kəndin, 1 qəsəbənin, 8 yüksəkliyin düşmənlərdən azad edilməsi mənfur terrorçu Ermənistanı hərbi kapitulyasiyaya məruz qoydu. Bu qələbələr işğalçı Ermənistanı məcbur etdi ki, Ağdam, Laçın, Kəlbəcər rayonlarını Azərbaycana siyasi yollarla qaytarsın. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Rusiya Prezidenti və Ermənistanın Baş Naziri müharibənin dayandırılması haqqında üçtərəfli bəyanat imzaladılar. Bəyanata əsasən 2020-ci il 10 noyabr tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. İşğal altında olan digər rayonlarımız - 2020- ci il 15 noyabr tarixinədək Kəlbəcər rayonu, 20 noyabr tarixinədək Ağdam rayonu, 1 dekabr tarixinədək isə Laçın rayonu Azərbaycan Respublikasına qaytarılacaq. Bəyanatda Dağlıq Qarabağın statusu haqqında heç bir kəlmənin olmaması Azərbaycan Ordusunun hərbi qələbəsinin nəticəsidir. Bəyanatın 9-cu bəndinə görə tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin ediləcəyi Naxçıvan Muxtar Respublikasını Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi bir addımdır[13].

## Abxaziya

Abxaziya Qara dənizin şərq sahilində yerləşməklə, şimalda Rusiya və Şimali Qafqaz dağları boyunca uzanan bir ərazidə yerləşir. İnzibati idarəetməyə əsasən 7 hissəyə bölünüb: Qaqra, Qudauta, Suxum, Oçamçira, Qulripş, Tquarçal və Qal. Mərkəzi Qara Dəniz sahilində yerləşən Suxumidir. Ərazisi 8600 km2, dini baxımdan isə əsasən islan və ortodoks xrsitianlığı geniş yayılıb. Əsas etnik qruplar isə abxaz, ermənilər, minqrellər, svanslar, gürcülər, yunanlar, ruslar və ukraynlardır. Abxazlar haqda məlumatlar yunan mənbələrində verilir. Onların burda məskunlaşmasına və yaşamasına dair məlumatlar Bizans sənədlərində daha çox rast gəlinir. Məhz Bizans dövründə xristianlıq qəbul olunmuşdur. 1801 – 1804-cü illərdə Gürcüstanın müxtəlif əraziləri (Kartli, Kaxetiya-1801, Minqreliya-1803, İmeretiya və Quria-1804) Rusiyanın idarəetməsinə keçdilər. 1810-cu ildə Çar I Aleksandr Abxaziyaya Rusiyanın tabeliyində olmaqla Muxtariyyət verdi. Bu da regionda birləşmənin qarşısını almaq və parçalanma meyillərini gücləndirmək üçün Çar Rusiyasının atdığı addımlardan idi. Lakin sonradan vəziyyətin dəyişməsi və Abxaziyanın müstəqillik qazanmasından sonra Rusiyanın bu bölgəni ilhaq üçün mübarizəsi uzun sürdü və 1864-cü ildə Rusiya ən sonuncu olaraq Abxaziya knyazlığını tabe etdirə bildi. Bu mübarizədən sonra Abxazlara qarşı Rusiyanın şiddətli şəkildə zülmü onların çoxunun Osmanlıya və Yaxın Şərqə mühacirət etmələrinə səbəb oldu. 1917-1918-ci illərdə Abxaziya Şimali Qafqaz ölkələrinə birləşdi. Menşeviklər Abxaziyanı Gürcüstana birləşdirdilər. 1921-ci ildə bolşeviklər Gürcüstanda Menşevikləri devirib hakimiyyətə gəldilər. 1922-ci ildə isə SSRİ-nin yaranması zamanı Abxaziya suveren respublika kimi bu ittifaqa tərəfdaş olmuşdu. 1925-ci ildə isə Abxaziya ilk konstitusiyanın qəbulu ilə Gürcüstanla "Xüsusi İttifaq Müqaviləsi" ilə birləşdirildi. 1931-ci ildə Stalin və Beriyanın razılığı ilə Abxaziyaya Gürcüstan daxilində muxatriyyət verildi. 1937-1953-cü illərdə məhz bu cütlüyün sayəsində Abxaziyaya Qərbi Gürcüstandan məcburi kütləvi immiqrasiya həyata keçirilmişdir.

Repressiya dövrü də Abxaziyadan yan keçməmişdir. Məhz XX əsrin 30-cu illərində həyata keçirilən gürcüləşdirmə siyasətinə qədərki dövrdə Abxaziyanın demoqrafik

göstəricilərində burada Abxazlardan başqa türk, erməni, yəhudi, yunan və digər xalqların nümayəndələrinin yaşadığı məlumdur. 1945-1946-cı tədris ilində etibarən abxaz dilli məktəb və universitetlərin bağlanması və abxazların gürcü məktəblərində təhsil almağa məcbur edilməsi tezliklə abxaz əlifbasının və dilinin unudulması təhlükəsi ilə nəticələndi. Yalnız 1953-cü ildə hakimiyyətin siyasi xəttində baş verə dəyişikliklərdən sonra 1978-ci ildə abxaz ziyalılarının apardığı mübarizə öz effektini az da olsa vermiş oldu. Belə ki Sovet rəhbərliyinə abxaz ziyalılarının yazdığı məktubda Gürcüstan rəhbərliyi "gürcüləşdirmə" siyasəti aparmaqda ittiham olunurdu. Lixnidə (Abxazların müqəddəs məkanı) keçirilən böyük münaqişələrin nəticəsi olaraq Abxaziyanın Rusiya federasiyasına birləşdirilməsi tələbi qabul edilməsə də, Abxaz universitetlərinin açılması və həftədə iki dəfə abxaz dilində 15 dəqiqəlik verilişlərin verilməsində güzəştə gedildi. 1988-1989-cu illərdə Gürcüstan milli hərəkatı Gürcüstanın SSRİ-dən ayrılması ilə birlikdə həm də Gürcüstan daxili muxtariyyətlər məsələsini də gündəmdə saxlayırdılar. 1990-cı ildə Sovet ittifaqının dağılması ərəfəsində artıq digər müttəfiq respublikalar kimi Abxaziya da öz suverenliyini elan etdi. Bundan dərhal sonra Gürcüstan bu məsələyə sərt mövqeyini bildirdi və suverenlik aktını ləğv elədi. Bu a artıq Sovet hakimiyyətinin dağılması zamanı münaqişə ocağının qızışdırılmasına ilk addım idi[4, s.9].

1992-ci il iyunun 24-də Rusiyanın vasitəçiliyi ilə Gürcüstan və Abxaziya nümayəndələri Rusiyanın Soçi şəhərində atəşkəs barədə 6 maddədən ibarət Soçi sazişini imzaladılar. Soçi sazişinə müvafiq olaraq iyunun 28- dən atəşkəs olmalı idi. Rusiya, Gürcüstan, Abxaziya nümayəndələrinin iştirakı ilə 1993-cü ilin avqust ayında Moskvada keçirilən görüş zamanı bağlanan sazişə əsasən Abxaziya hökuməti Suxumidən Qudauta köçürüldü və burada Rusiya hərbi bazası yerləşdirildi. Abxaziyada Rusiyanın hərbi bazasının yerləşdirilməsi Gürcüstan ilə Rusiya arasında münasibətləri kəskinləşdirdi. Separatçıların Oçamçırı və Qali istiqamətində hücumu nəticəsində 100 mindən çox qaçqın Svaneti dağlarında sığınacaq tapdı. Onlarla insan soyuqdan, aclıqdan həlak oldu. Sentyabrın 19-da təkcə Axaldaba kəndi işğal edildikdən sonra 60 dinc sakin, əsasən qadın və uşaqlar güllələndi, Axaldaba stadionuna qovulan 600 nəfər qoca, qadın, uşağın taleyi isə naməlum qaldı.

1993-cü ilin fevralında Rusiya və Gürcüstan arasında Dostluq və əməkdaşlıq barədə müqavilə imzalansa da, Rusiya Dövlət Duması onu təsdiq etmədi. Oktyabr ayında Gürcüstanda Rusiya hərbi bazalarının statusu barədə müqavilə imzalandı. Bu müqaviləyə görə Gürcüstanın Qudaut, Batumi, Vaziani, Axalkələk ərazilərində Rusiya hərbi bazalarının olması müddəti artırıldı. 1993-cü ilin dekabrında Gürcüstan MDB-yə daxil oldu və rus qoşunlarının müvəqqəti olaraq Gürcüstan ərazisində saxlanılması haqqında razılıq əldə edildi. Lakin Rusiya və Gürcüstanarasında abxaz problemi barədə qarşılıqlı razılıq olmadı. AbxaziyaRespublikası Ali Soveti 1994-cü il noyabrın 26-da özünü respublika elan etdi. Bu zaman artıq silahlı münaqişə sona çatmışdı[13].

**Gürcü-Osetiya münaqişəsi**

Digər münaqişə ocağı kimi isə Gürcü-Osetiya münaqişəsi sayılır. Cənubi Osetiya coğrafi cəhətdən Böyük Qafqaz dağlarının cənub ətəyində yerləşir və 3900 km$^2$ ərazini əhatə edir. Şimaldan isə Rusiya ilə sərhəddir. 1989-cu ilin siyahıyaalınmasına görə 98000 osetin Cənubi Osetiya muxtar respublikasında yaşayırdı ki bu da ümumi Gürcüstanda yaşayan osetinlərin 2/3ü qədər idi. Gürüstanda yaşayan osetinlərin ümumi sayı əhalinin 35%-ini təşkil edib. Cənubi Osetiyada isə ümumi əhalinin 2/3 hissəsi osetinlər idi. Digər 295-i gürcülər, qalan 4% isə rus, erməni və yəhudilər idi.

Cənubi Osetiyanın tarixinə gəldikdə bu barədə məlumatlar bir qədər fərqli mənbələrdə müxtəlifdir. Hazırkı Cənubi Osetiya ərazisi 1801-ci ildə Rusiyaya Gürcüstanın tərkibində

qoşulub. Gürcü mənbələri Cənubi Osetiyanın Şimali Osetiyadan nə zaman ayrılması barədə müfəssəl məlumat verməsələr də Cənubi Osetiyanın 1920-ci il Rus işğalı zamanı artıq Gürcü tabeliyində olduğunu qeyd edirlər. Şimali Osetiya isə Terek Sovet Respublikasının tərkibinə qoşulmuşdur. 7 may 1920-ci ildə Rusiya və Gürcüstan arasındakı dostluq müqaviləsində Cənubi Osetiya Gürcüstanın bir hissəsi kimi tanındı. 1920-ci ildə hazırda Şimali Qafqazın paytaxtı olan Alaniyada silahlı qüvvələrini toplamış Rusiya Kommunist partiyasının köməkliyi ilə geniş miqyaslı üsyan qaldırıldı. Gürcüstan hökuməti bu əraziyə qoşun yeritdi, lakin Sovet Rusiyası 7 may Moskva müqaviləsini əsas gətirərək qoşunların burdan çəkilməsini tələb etdi. Həmin ilin iyun ayının 8-də Cənubi Osetiya özünü ayrıca dövlət kimi Rusiyanın tərkibinə daxil olduğunu elan etdi. Gürcüstan isə ərazisinin pozulmasını əsas gətirərək, Osetiya üzərinə hücuma keçdi və Osetiya mənbələrinin yazdığına görə 5000 nəfər öldürüldü və 13000 nəfər aclıq və epidemiyadan öldü.

1921-ci ildə isə Osetiya Gürcüstan daxilində muxtariyyət kimi özünü elan etdi və paytaxtı Çxinveli oldu. Bu hadisədən sonra ərazinin etnik xəritəsində də dəyişikliklər baş verdi. Bu elə sürətlə baş verdi ki, tezliklə burdakı bir çox qədim gürcü şəhərləri osetinləşdi [9, s.49]. 1980-ci illərdə Gürcüstanda yaranan milli azadlıq hərəkatının millətçilik üzərində köklənməsi tezliklə Cənubi Osetiyaya da öz təsirini göstərdi, belə ki burda açılan Suxumi Universitetinin filialında tezliklə tələbələr milli ruhda köklənmiş hərəkat yaratdılar. Bundan sonra yaranan hərəkat Cənubi Osetiyanın Rusiyanın tərkibində olan Şimali Osetiya Muxtar Respublikası ilə birləşdirilməsi uğrunda mübarizəyə başladılar. 1980-ci illərin başlanğıcında Osetinlərin əsas istəyi 1918-1920-ci illərdə Demokratik Gürcüstan Respublikasının Osetinlərə qarşı törətdiyinin soyqırım adlanmasıdır. Osetin tərəfi iddia edir ki, həmin hücumlarda 387 kişi, 172 qadın, 110 uşaq qətlə yetirilmişdir. Ümumilikdə isə bu və ya digər səbəblərdən 1206 kişi, 1203 qadın və 1732 uşağın həyatına son qoyulub. 20 sentyabr 1990-cı ildə Osetiya parlamenti bu hadisəni Gürcüstan Demokratik respublikasının törətdiyi soyqırım kimi qəbul etmişdir.

1992-ci ilin yanvar ayında isə Cənubi Osetiyanın Şimali Osetiyaya birləşməsinə dair Cənubi Osetiyada referendum keçirildi. Cənubi Osetiya 1992-ci il mayın 29-da özünü respublika elan etdi. 1992-ci il iyunun 24-də Daqomısda B.Yeltsin və E.Şevardnadze arasında görüş keçirildi. Rusiya, Gürcüstan, Cənubi Osetiya və Şimali Osetiyanın iştirakı ilə dördtərəfli danışıqların nəticəsi olaraq iyunun 24-də Soçidə atəşkəs barədə bağlanan saziş (“Daqomıs sazişi”) müharibəni dayandırdı. Cənubi Osetiya 1992-ci il sentyabrın 25-də Gürcüstandan ayrılmaq barədə qərar qəbul etdi. Avqustun 25-də Rusiya Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanıdı, sentyabrın 9-da isə onlarla diplomatik münasibətlər yaratdı[14, s.56].

2009-cu il yanvarın 16-da İqor Ahba Abxaziyanın, Dmitriy Medoyev Cənubi Osetiyanın Rusiyada nümayəndələri təyin olundular. Həmin il fevral ayında Rusiyanın Cənubi Osetiyada, 2010-cu il mayın 17-də Abxaziyada səfirliyi açıldı. 2011-ci il aprelin 7-də Rusiyanın Prezidenti Dmitri Medvedyev Qarşılıqlı vizasız gedişgəliş barədə Abxaziya və Cənubi Osetiya ilə sazişi imzaladı. Rusiyanın bu addımından sonra dünya dövlətləri və beynəlxalq təşkilatlar bu hadisələrə reaksiya verdilər. Nikaraqua, Venesuela, Nauru (Sakit okeanın cənubunda olan ada ölkəsi), Vanuat (Sakit okeanda ada ölkəsi) Abxaziyanın, Tuvalu (Sakit okeanda ada ölkəsi) Abxaziya və Cənubi Osetyanın müstəqilliyini tanıyaraq, onlarla diplomatik münasibətlər yaratdılar [15, s. 3].

## ***Nəticə***

Abxaziya və Cənubi Osetiya Rusiya ilə birləşməyə cəhd edir. Bu iki münaqişə beynəlxalq münaqişəyə çevrilmiş, başlanğıcından Abxaziya problemi, 2008-ci il avqust ayında Rusiyanın Gürcüstanın daxili işlərinə müdaxiləsi nəticəsində baş vermiş 15 günlük

müharibədən sonra isə Cənubi Osetiya problemi BMT çərçivəsində dəfələrlə müzakirə edilmişdir. Hazırda Qarabağ münaqişəsinin yekunu olaraq noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalanması qüvvədədir. Bəyanata əsasən, noyabrın 20-də Ağdam rayonu, noyabrın 25-də Kəlbəcər rayonu, dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verilib. 10 noyabr 2020–ci ildə hərbi əməliyyatlar dayandırıldıqdan sonra, Qarabağ ərazisindəki digər şəhər, qəsəbə və kəndlər üzərində də Azərbaycanın suverenliyi bərqərar olmuş, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunmuşdur. Qrabağda bərpa-quruculuq işləri gedir. Mədəni irsin bərpası istiqamətində də böyük layihələr icra olunur.

***Ədəbiyyat***

1. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə, Bakı: 1990. 125 səh.
2. Xəlilov X.D. Qarabağın etnik tarixindən. // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1988, № 3
3. Əsədov F. K., Kərimova S. A. Çarizmi Azərbaycana gətirənlər" Bakı: 1993, 144 səh.
4. Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: 2004, 472 s.
5. Hüseynova İ. M. Heydər Əliyev və Qafqazda sülh prosesi, Bakı: 2008, 672 s.
6. Köçərli T. Y. Qarabağ: Yalan və Həqiqət, Bakı: 1998, 153 s.
7. Muradov M. "Çar Rusiyasının Azərbaycana köçürmə siyasəti, Bakı: 2001, 158 s.
8. Гусейнова И. М. История народов Кавказа. Баку: 2018, 1248 с.
9. Anzor Totadze: The Ossets in Georgia: myth and reality, Tbilisi, 2008, p 295
10. S. Gömeç, Türk Cumhuriyetleri ve Toplulukları Tarihi, Ankara 1999, s. 260
11. Y. Sarınay vd., Osmanlı Belgelerinde Karabağ, Başbakanlık Osmanlı Arşivi İstanbul, 2009., s. 385
12. Zaur Adıgözəlov. https://apa.az/az/blog/blog-single/Ermnilrin-Azrbaycanda-mrhlli-mskunlasmasi:-beynlxalq-huquq-msuliyyti-158.İstifadə olunma tarixi.30.11.2022
13. Ramilə Dadaşova //Cənub Qafqazda olan münaqişələrin səbəb və nəticələri. 19.12.2020 https://dergipark.org.tr/tr/download/article-file/1480687 İstifadə olunma tarixi.30.11.2022
14. Виктор Кабышев, "Последствия грузино-юго осетинског вооруженного конфликта 2008 года", Историческая и социально-образовательская мысль, 2(2), 2016, с. 56.
15. Вячеслав Чирикба, Международно-прававой статус Абхазии, Сукум 2013, с. 3.

## ИСТОРИЧЕСКИЕ КОРНИ КОНФЛИКТОВ НА ЮЖНОМ КАВКАЗЕ

***Гасымова Туркан Ильгар кызы***

***Резюме***

В конце XX в Советском Союзе отчетливо наблюдались первые элементы упадка. Социально-экономический спад, в свою очередь, вызвал потрясения в союзных республиках. Такая напряженность также обостряла межэтнические отношения. На Южном Кавказе ситуация была более напряженной. Здесь были как очаги конфликта, существовавшие до создания Союза, так и ряд проблем, возникших после его создания. Результатом этого стало то, что на не столь большом по территории Южном Кавказе возникли три активных зоны конфликта: армяно-азербайджанский конфликт в результате оккупации Арменией азербайджанских территорий, грузино-абхазский и грузино-осетинский конфликты в Грузии. Три перечисленные зоны конфликта к установлению СССР были горячие точки и в доисторическую эпоху. В настоящее

время он сохраняет свою актуальность, как и в конце XX века, и превратил Кавказ в самый горячий очаг конфликта в мире.

## HISTORICAL ROOTS OF CONFLICTS IN THE SOUTH CAUCASUS

***Gasımova Turkan Ilgar***

***Summary***

At the end of the twentieth century, the prerequisites for the decline in the Soviet Union were clearly observed. The socio-economic decline, in turn, caused upheavals in the Union republics. Such tensions also exacerbated interethnic relations. The situation in the South Caucasus was more tense. There were both hotbeds of conflict that existed before the establishment of the Union and a number of problems that arose after the establishment of the Union. It was as a result of this that three active conflict zones emerged in the not-so-vast South Caucasus: the Armenianazerbaijan conflict as a result of the occupation of Azerbaijani territories by Armenia, the Georgian-Abkhaz and Georgian-Ossetian conflicts in Georgia. The listed three conflict zones to the establishment of the USSR there were hot spots in the early period. As at the end of the twentieth century, it remains relevant and turned the Caucasus into the hotbed of conflict in the world.

***Rəyci: dosent (atesstatsız) Aynur Hüseynova***
***Qafqaz xalqları tarixi kafedrasının 02 dekabr 2022 çi il tarixli 5 saylı protokolu***
***Daxil olma tarixi 06 dekabr 2022-ci il***

**UOT: 94 (479.24)**

## GƏNCƏ ŞƏHƏRİ XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ MİLLİ DÖVLƏTÇİLİK MƏFKURƏSİNİN MƏRKƏZLƏRİNDƏN BİRİ KİMİ

***Həsənov Elnur Lətif oğlu***
***Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsi***
***lnurh273@gmail.com***

**Xülasə:** *Elmi məqalədə qədim tarixə malik olan Gəncə şəhərinin ötən əsrin birinci yarısında milli dövlətçilik tariximizdə sahib olduğu əhəmiyyətli mövqeyi çoxsaylı mənbələr, yazılı sənədlər, arxiv məxəzləri əsasında araşdırılmışdır. Azərbaycanın milli məfkurəsinin yaşadılması sahəsində bu qədim şəhərin tarixi şəxsiyyətlərinin, milli dövlətçiliyimizi mühafizə etmiş və onun inkişafına şərait yaratmış dövlət xadimlərinin xidmətləri elmi əsaslarla tədqiq edilmişdir. Elmi məqalədə qardaş Türkiyə Cümhuriyyəti ilə dövlətimiz arasında mövcud olmuş və bu gün əbədiləşmiş tarixi və milli-mədəni bağlılığımızın daha da möhkəmlənməsində Gəncə şəhərinin əhəmiyyəti məsələsi öyrənilmişdir.*

***"Ağıl, kamal bəsləməz igidliyə ədavət,***
***Hünər də, igidlik də ədalətdir, ədalət!".***
***Şeyx Nizami Gəncəvi***

**Açar sözlər:** Azərbaycan, Türkiyə, Gəncə, milli dövlətçilik ənənələri, məfkurə.
**Ключевые слова:** Азербайджан, Турция, Гянджа, традиции национальной государственности, идеология.
**Key words:** Azerbaijan, Turkey, Ganja, traditions of national statehood, ideology.